# CƏBRAYILIN GƏLƏCƏYİ... DÜŞÜNCƏLƏRİM



*Əzizli Əlirza Zal oğlu*
*(Əli Rza XƏLƏFLİ)*

***Qabaqcıl Maarif xadimi, Beynəlxalq Rəsul Rza mükafatı laueratı, Səməd Vurğun adına və Şahmar Əkbərzadə adına Ədəbiyyat Mükafatları laueratı, "Kredo" qəzetinin baş redaktoru, şair-publisist***

Cəbrayıl təkcə faydalı qazıntılar yatağı ilə zəngin olan ərazi deyil. Azərbaycan tarixində izi olan görkəmli şəxsiyyətlərin adlarını da əbədi yaşadan ərazidir. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev Cəbrayılın işğaldan azad olunmasına Şuşa qədər xüsusi önəm veririd. Onun bir çox çıxışlarında Cəbrayıl adı xüsusi vurğu ilə çəkilirdi. Çünki o, yaxşı bilirdi ki, Azərbaycan xəritəsində Cəbrayıl necə həssas bir ərazidir.

Mənim düşüncəmə görə Cəbrayıl rayonu bir çox cəhətdən dünya xəritəsində Azərbaycanın ən həssas nöqtəsi kimi işarələnib. Geoloji və siyasi baxımdan həmişə diqqət mərkəzində olan ərazi erməni vandalları tərəfindən Qarabağın ən qəddarcasına talana məruz qalmış bölgələrindən biridir. 10.000 hektarlarla meşə zonası məhv edilmiş, flora və faunası da insanları kimi birmənalı şəkildə genosidə məruz qalmışdır.

Öz yaşıdlarım üçün deyirəm ki, taleyin bizə bəxş elədiyi ən böyük mükafat budur ki, biz Qarabağın və o cümlədən, Cəbrayılın işğaldan azad olunmasını görə bildik. Bu həsrəti qəlbində, varlığında daşıyaraq dünyadan köçmüş qarabağlıların - cəbrayıllıların hər birinə rəhmət diləklərimizi əsirgəmirik.

Ali Baş Komandanın qətiyyətli mövqeyi və sərrast sərkərdəlik məharəti ilə qələbə sevincini yaşamaq qismətimizə düşdü. Azərbaycan Ordusu zəfər yürüşü ilə xalqımızın həsrətinə son qoydu. Doğrudur, şəhidlər verdik, canının sağlamlığını itirən çoxlu sayda qazilərimiz var. Yeri gəlmişkən, dövlətimizin qayğısı ilə Cəbrayıl tarix-diyarşünaslıq muzeyinin nəzdində Qarabağ müharibəsi - Cəbrayıl şəhidləri muzey filialının da yaradılmasına, zənnimcə, ehtiyac olacaq.

Cəbrayıl kifayət qədər abad olan şəhər, qəsəbə və kəndlərə malik bir rayon idi. Rayonun ərazisinin bərpası məsələsi kifayət qədər müxtəlif rəyli ola bilər. Mən sadəcə öz düşüncələrimi qeyd edirəm. 90-dan yuxarı kənd, 4 qəsəbə və 1 şəhəri yenidən necə bərpa etmək məsələsində indi 80000 nəfərə yaxın rayon sakinin rəyi eyni ola bilməz. Hər halda, bu məsələdə ictimai rəy nəzərə alınmalıdır.

Mən "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinə xüsusi önəm verirəm. Çox arzulayardım ki, Cəbrayıl şəhəri baş planı işlənməklə xüsusi layihə əsasında bərpa olunsun. Şübhəsiz, mərkəzi küçələr çoxmərtəbəli binalarla, ictimai obyektlərlə, inzibati strukturu əhatə edən obyektlərlə təchiz oluna bilər.

Fərdi evlərin tikintisi və bu evləri müəyyənləşdirən küçələr sərt planla tənzimlənməlidi və bu zaman ayrı-ayrı ərazilərdə Cəbrayılın məhəllələrinin yenidən yeləşdirilməsi tarixi baxımdan mütləq nəzərə alınmalıdır: Mirzəcanlı məhəlləsi, Qalalılar məhəlləsi, Qaracallı məhəlləsi, Yarəhmədli, Qurbantəpə, Şahvələdli, Xələfli, İmambağı, Xudaverdili, Xubiyarlı... və s. (hansı məhəllənin adı yadıma düşməyibsə, qeyd etməmişəmsə, oxuculardan üzr istəyirəm). Orda uzun müddət diqqətdən kənarda qalan bir məqama da diqqəti cəlb etmək istərdim... Məşhur Cəbrayıl tayfası haqqında... bu tayfa haqqında etnoqraf Ənvər Çingizoğlu geniş bilgi verə bilər... Cəbrayıllı tayfasının qalıqları var... Şıxlar kəndində yaşayan Abasquluuşağı özlərini Cəbrayıllı tayfasının varisləri bilirlər... Cəbrayıl Ata adı bizim üçün mühüm əhəmiyyət kəsb etməlidir. Zənnimcə, insanlar nisbətən dədə-baba məhəllələrinə uyğun yerləşdirilsə narazılığa çox az yer qalar.



Cəbrayıl şəhəri kifayət qədər zəngin tarixə və demək, çox dəyərli tarixi abidələrə malik bir bölgənin mərkəzi idi.

Cəbrayılın tarixini İslam dövrü ilə bağlamaq təkcə mübahisəli deyil, həm də kobud səhvdir... Düşmənlərimiz elə bunu istəyir... Soltan Əhməd adı İslamdan bəriki dövrə xasdır... Cəbrayıl Ata adını tarix özü bizim üçün qoruyub... Arxeoloqlar və tarixçilər Cəbrayıl Ata məqbərəsini asanlıqla tədqiq edər və abidənin qədim Albaniya dövrünün sakini... yadigarı olduğunu sübut edərlər... Ona görə də birinci növbədə Cəbrayıl şəhərinin adının sahibi olan Cəbrayıl Ata (V-VII əsrlər) məqbərəsi xüsusi dövlət qayğısı ilə bərpa olunmalı və Cəbrayıl ərazisinin turist marşrutuna daxil edilməlidir. Heç də Cəbrayıl Ata məqbərəsindən geri qalmayan Ağoğlan məbədi də (Şahvələdli kəndindən yuxarıda), Qurbantəpəsi, Soltanəhməd hamamı, Qaradaş... kimi tarixi abidələr də xüsusi dövlət qayğısı ilə işarələnməli, bərpa olunmalı, Cəbrayıla gələn turistlərin marşrutuna daxil edilməlidi.

Bəri başdan kəhrizlər və bulaqlar haqqında danışmazdan əvvəl Cəbrayıl şəhəri üçün həyat mənbəyi olan 4 kəhrizin adını çəkmək istərdim: Hüseynağa kəhrizi, Məhəmməd bəy kəhrizi, Çinar kəhrizi və Ağsaklar kəhrizi... Bu kəhrizlərin hər biri həm qədim dövrlə, həm də Qarabağ tarixi ilə bağlıdır. Xüsusilə, Hüseynağa və Məhəmməd bəy kəhrizləri Qarabağın Cavanşirlər nəslinin yadigarı kimi Cəbrayılda yaddaşların əzizi idi. Demək, ilk növbədə Cəbrayıl şəhərinin abadlığı naminə bu 4 kəhrizin həyata qaytarılmasından başlamaq daha vacibdir. Bəli, Cəbrayıl ərazisi məşhur bulaqlar və kəhrizlər məkanı idi. Biz işğal zamanı dərk etdik ki, həmin sular xalqın çox dəyərli sərvəti olmaqdan başqa, adlarına və işlənmə texnikalarına görə tariximiz üçün xüsusi əhəmiyyət daşıyıb. Cəbrayılda 112 adlı kəhriz və bəlkə bundan da çox adlı bulaqlar var idi. Şübhəsiz, düşmən bu kəhrizləri barbarcasına məhv edib. Baxımsızlıqdan bulaqlar quruyub. Ona görə də 112 kəhrizin (bu barədə mən əvvəllər mətbuatda geniş şəkildə yazmışam; hər bir kəhrizin adı, yerləşdiyi yer, su tutumu və s. barədə) hər biri tarixi abidə kimi bərpa olunmalıdır. Bu sırada, şübhəsiz, adlı bulaqlar da xüsusi əhəmiyyət kəsb edir.

Mənim düşüncəmə görə Xudafərin su qovşağının və Qız Qalası su qovşağının tikintisi ilə bağlı olaraq həmin ərazilərə yerli sakinlərin qayıtması mümkün deyil. Həmin ərazilər Aşağı Xələfli (Xələfli qəsəbəsi), Xudafərin qəsəbəsi, Qumlaq kəndləri (Məstəlibəyli, Dərzili) və Qumlaq qəsəbəsini əhatə edirdi. Ona görə də bu yaşayış məskənlərinin tarixi iş yerləri və həyat şəraitləri dəmir yol xətti ilə bağlı olduğundan Diri dağının şimal üzündə - Gəyən düzündə Xudafərin adlı qəsəbə (bəlkə də şəhər) salmaq daha məqsədəuyğun olardı.

Yeri gəlmişkən, Diri dağının xüsusi tarixi abidələr məkanı olduğunu da burada yaddan çıxarmaq olmaz: Qız Qalası, Qurbaninin məzarı, Mazannənə türbəsi və yaxınlıqdakı məqbərə... digər tarixi abidələr də var. Mən, xüsusilə bərpası vacib olan abidələrin adlarını qeyd edirəm. Bu sırada, əlbəttə, Qurbaninin abidəsi və məqbərəsi haqqında ayrıca düşünməliyik. Yəqin ki, Maralyan kəndində ilk saz tutub, sazla söz deyən maralyanlı Aşıq Pərinin qəbirüstü abidəsi də unudulmayacaq.

Azərbaycan tarixi üçün xüsusi əhəmiyyət kəsb edən Xubyarlı türbələri, Şıxlar türbələri, Şıxlarda şəhərgə ərazisi, Dağ Tumasda Başıkəsik günbəz, Sirikdə Tey qalası (bu qala möhtəşəmliyinə görə, insan zəkasının və qüdrətinin təzahürü baxımından Çıraqqala ilə müqayisə oluna bilər. Əslində, bu tipli qalalar Azərbaycan tarixinin daş pasportudur), Çələbilər kəndindəki məscid-məbədlər və kəndin özü, Hacı Qaraman türbəsi... və həmin ərazilərdəki digər abidələrin bərpası, turist marşrutuna daxil edilməsi bir çox cəhətdən əhəmiyyətlidir.

Hələ Minbaşlıdan tutmuş Hovuslu... Qalacıq kəndlərini keçməklə vadi boyu az qala möhtəşəm Sirik İstirahət düşərgəsinə qədər düzülmüş kurqanlar... eradan əvvəl III-VII minilliklərin yadigarları hansı qonağın... turistin qəlbini həyəcana gətirməz? Sirik... meşələri, bulaqları, təbiəti... dünyanın kurort yerlərilə rəqabət gücündə deyilmi?!

Cəbrayıl ərazisində Divlər sarayı adlanan təbii-arxeoloji abidə var idi. Bu abidə, əslində, mağara abidədir və heç şübhəsiz, Azıx mağarası ilə yaşıddır. Elə həmin abidənin adına "Divlər mağarası" da deyirdilər. Quşçular kəndinin üstündə - Qızılqaya adlanan zirvədə siklop (siqion) tikililəri də məşhur idi. Xüsusilə, bu abidələrin nəzarətə götürülməsi, bərpası, turist marşrutuna daxil edilməsi Cəbrayılın gələcək inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edərdi.

Mənim doğulduğum Xələfli kəndi Cəbrayıldan cənub-qərb istiqamətində, dağların zirvəsində yerləşirdi. Rayon mərkəzindən 8 km-lik məsafədə olsa da, iqliminə görə, dəniz səviyyəsindən yüksəklik baxımından Araz qırağı ərazidən çox fərqlənirdi. Kəndimiz Kiçik Qafqaz sıra dağlarının Qarabağ silsiləsinə aid olan Gordubaba və Xələf dağlarının arasında yerləşirdi. Çoxlu adlı bulaqları vardı: Korbulaq (bəlkə, Gur bulaq) suyu ilə kəndin bağ-bağat, tərəvəz əkinlərini təmin edirdi. Gecə vaxtı az qala 1 km-lik məsafədən bulağın şırıltısı eşidilirdi. Təhnəsi, novu hardansa uzaqlardan gətirilmiş qiymətli daşlarla ərsəyə gəlmişdi.

*(Davamı 3-cü səhifədə)*

# CƏBRAYILIN GƏLƏCƏYİ... DÜŞÜNCƏLƏRİM

*(Əvvəli 2-ci səhifədə)*

Korbulaqdan yuxarı güneydən xüsusi boru ilə çəkilib gətirilmiş İbrahimli məhəlləsinin Güney bulağı, məşhur Vəli bulağı da suyunun keyfiyyətinə görə çox dəyərli hesab olunurdu... Bu bulaqların da bərpa olunmaqla istifadəyə qaytarılması vacibdir...

Xələfli kəndində ikinci məşhur bulaq - bizim evimizin də lap yanında olan bulaq Şirvan bulağı adlanırdı. Ən azı 300 illik tarixi vardı. Təhnəsi, novu və əhatəsi üçün qara, şumal, yonulmuş qiymətli daşlar Qarabağın harasındansa buraya car-carla daşınıb gətirilmişdi. Novu əhatə edən daşlar, təhnənin özü, novun qabağına düzülmüş üzlük daşlar iri sal qara mərmərlərdən ibarət idi. İndi bu bulaqları necə tarixi abidə hesab etməmək olar?! Adları var idi, uzaq və zəngin keçmişləri var idi, daşlar üzərində sənətkar əlinin izləri var idi. "Mirin qozu", "Mirzə suyu" bulaqları da əvəzolunmaz maddi sərvətlərimiz sırasındadır. Artezian quyuları vurmaqdansa, bulaqları həyata qaytarmaq daha vacibdir. Üzü Tatar və Quşçular kəndlərinə gedən yolun üstündə məşhur "Şəkər-Xatun" bulağı... adı dastanlar bəzəyi abidə-bulaq idi. Həmin bulağın tarixilə səsləşən əfsanəni əsas tutaraq bir poema da yazmışam. Elə həmin əraziyə yaxın Aşıq Məlikli kəndinin yaxınlığındakı "Qarabəyli bulağı"... Bura əsl istirahət sahəsi üçün çox dəyərlidir... Yaxud müalicəvi əhəmiyyəti olan məşhur "Cingir bulağı"... Şahvəllidə idi. Bu mineral bulaq haqqında bir əfsanə-hekayə də yazmışam. Bu, olub 80-ci illərdə. Bəli, tarixi uzaqda axtarmaq lazım deyil. Nə isə...

Xələfli kəndinin mərkəzində Xələf piri adlanan ziyarətgah, yəqin ki, orada doğulub-böyüyənlərin heç birinin yadından çıxmayıb. Düşünürəm ki, həmin ziyarətgah-məqbərə də bərpaya möhtacdır.

Təkcə Xələfli kəndinin yox, bütün Qarabağın, o cümlədən, Cəbrayılın qəbiristanlıqları da dağıdılıb. Yəqin ki, bu barədə əlaqədar təşkilatlar da düşünəcəklər. Ən azı, həmin qəbiristanlıqlarda erməni vandallarının əməllərini ifşa edən sadə yaddaş abidələri də qoyula bilər.

Bir daha mübahisəli olacaq məsələyə qayıtmaq istərdim. Ağıllı kənd layihələri dərələrdə, vadilərdə, 3-4 evdən ibarət olan kəndləri birləşdirmək baxımından faydalı olardı. Yenə də məhəllə, qonşuluq, qohumluq münasibətləri baxımından yerləşdirmə sakinlər üçün daha münasib olardı. Əlbəttə, vəziyyət düzəldikcə, şərait yaxşılaşdıqca, insanların şəhərdən axınını təmin etdikcə tavanalı insanlara ata-baba mülklərinin yerində yay-yaylaq evləri, bir sözlə, dədə-baba mülklərinin bərpası üçün də şərait yaradılması mümkün hesab oluna bilər.

Cəbrayıl saz-aşıq yurdunun tarixi beşiyidi. Azərbaycanın ilk saz-qopuz tutan sənətkarı Dirili Qurbanidir. Və onun tarixi məkanı Diri dağındakı Qız Qalası yaxınlığındakı Diri kəndidir. Təsadüfi deyil ki, sənətkar öz adında "Dirili" sözünü yaşadır. Biz Dirili Qurbani deyirik.

Cəbrayılda Diri dağı əbədiyaşarlıq məskəni hesab olunurdu. Buradakı qədim yaşayış məskənlərinin, Şirə Daşının qədim bağlarının çox əsrlik yaşı vardır. Ümumiyyətlə, Diri dağı da ən gözəl, ən dəyərli turist marşrutu ola bilər.

Cəbrayıl rayonunda işğala qədər "Diri dağ" folklor ansamblı fəaliyyət göstərirdi. Şahvəlli kəndində tanınmış mədəniyyət işçisi Hüseyn Əliyevin rəhbərliyi ilə "Çahargah" muğam ansamblı yaradılmışdı. Həmin ansambl vaxtilə SSRİ Mədəniyyət Nazirliyinin Fəxri fərmanları ilə təltif olunmuşdu. Cəbrayıl rayon Mədəniyyət Evinin nəzdində dram yaradıcılıq evi, o cümlədən, "Çinar" rəqs ansamblı, "Abbasovlar" ailə ansamblı fəaliyyət göstərirdi. Böyük Mərcanlı kənd Mədəniyyət Evinin nəzdində fəaliyyət göstərən İstedad birlikləri, Xalça muzeyi, Xələfli kənd klubunun "Tərəkəmə" rəqs ansamblı da kifayət qədər məşhur idi. Düşünürəm ki, bu ansamblların fəaliyyətinin bərpası tarixi-etnik yaddaşın oyanışına çox kömək edə bilər.

Artıq yuxarıda qeyd etdim ki, Cəbrayıl erməni işğalına qarşı iki müharibədə şücaətlə döyüşüb. Bu qəhrəmanlığın İkinci Cahan savaşından gələn varisliyi də vardı. Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədov və Qarabağ müharibəsinin şəhidləri, qaziləri və eləcə də, 44 günlük savaşın qəhrəmanları ilə bağlı xüsusi mədəniyyət mərkəzi, muzey də yaratmaq olar. Bu muzeyin nəzdində Cəbrayılın qəhrəmanlıq tarixini əks etdirən mətbuat və kitab nəşrlərinin nümunələri toplana bilər. Və bu, qəhrəmanlıq tariximizin zəngin kitabxanasına çevrilər. Bu yer yeni nəsil üçün tarixi öyrənmək baxımından əsl ziyarətgah olar.

Ümumiyyətlə, Cəbrayılın tarixini əks etdirən muzeydə Azərbaycan tarixində xüsusi yeri olan şəxsiyyətlərin həyat və fəaliyyətlərini əks etdirən guşənin yaradılması varislik baxımından xüsusi əhəmiyyət kəsb edərdi. İşğal dövründə Cəbrayılın və əlbəttə, həm də Qarabağın azadlığı uğrunda qələm çalmış sənətkarların əsərləri də Cəbrayılda bir araya gətirilə bilər. Burada, xüsusilə, ayrı-ayrı kəndlərlə bağlı tarixi yerlər və abidələr haqqında danışa bilmədim. Yaxşı olar ki, hər bir kəndin yetirməsi olan ziyalı doğulub-böyüdüyü ərazinin tarixi yerləri, abidələri haqqında özü məlumat versin.

...Qarabağ həsrətini zaman-zaman sinəmdə daşımışam. Publisist yazılarımda, "Od" romanımda, "Qiyamətdən bir gün əvvəl" povestimdə, eyni zamanda ardıcıl olaraq hisslərimi, duyğularımı ifadə edən poetik yaradıcılığımda Qarabağ və Cəbrayıl həsrətilə birgə yaşamışam. Söz mənim üçün bu illər ərzində təkcə özümü ovundurmaq vasitəsi olmayıb, həm də insanlara inam aşılamağa çalışmışam. Çünki bütün varlığımla inanırdım bir gün Qarabağa dönəcəyimizə. Nəvələrim Amur və Aralın timsalında Azərbaycan Ordusu Qarabağı qaytardı. Müzəffər komandanlıq, bacarıqlı sərkərdəlik qaytardı Qarabağı! Bu da "Cəbrayıl" poemasından bir parça:

Gözlərimlə yeriyib gəlmişəm ayağına,
Eşidəsən səsimi sədamı, ay **Cəbrayıl!**
Səni Haqdan göndərib, zəncirlə sallayıblar,
Yer üzündə bircəsən - **Tanrı**dan pay, **Cəbrayıl!**

Ayrılıq çəkənlərin çəkdiyini bilirəm,
Əzəl-axır haqsızın çökdüyünü bilirəm;
Bir vaxt **Almaz İldırımın** əkdiyini bilirəm;
Sinəm üstə göyərər, həsrət «oy, oy», **Cəbrayıl!**

**Amur**un yenməz gücü, çağır gəlsin haraya,
**Aral**ın duzlu suyu məlhəmindi yaraya;
Türkün dönməz inadı meydan olsun **Araya**,
Sıralansın dağları alay-Alay **Cəbrayıl!**

**Alur**un qalib adı nişandı qüdrətinə
Türk əsli türk boyunun bayraqdır şöhrətinə,
**Atilla**dan bu yana - dünyanın heyrətinə
Baş qaldırsın, oyansın qançəkər, soy, **Cəbrayıl!**

Yarmağa zülmətləri sinəmdə od qaladım
Alov-alov dillərə haray fəryad qaladım.
**Orxon-Yenisey** dilli od aldım, ad qaladım,
Şumerdən üzü bəri - **Qafqaz, Altay Cəbrayıl!**

**Ağru** ilə çırpınan üç zolaqlı ələmim,
Göy nəfəsim, al qanım, çəmənimdi ələmim.
Ozanam - qopuzumdu kağız üstə qələmim
**Dədə Qorqud** kitabım - on iki boy, **Cəbrayıl!**

Dedim, gedək, ey könül, o yerlərə-yalvardım,
Xəyalımdan zərrələr, qəlbimdən nur apardım,
Hər misramı canımdan parça-parça qopardım,
Biləsən hər sözümü xəbər, haray, **Cəbrayıl!**

Yuxu-yuxu yol gedib, sarılaram boynuna,
Həsrətin ilğımında sığınaram qoynuna.
Deyirəm, lənət olsun, bu dünyanın oynuna
Qorxa-qorxa dolanır, üstündə Ay, **Cəbrayıl!**

Yaş gəldi, xırxaladı, əlim uzalı qaldı,
Neçə arzum, istəyim dildə sozalı qaldı,
Namərdlər üz çevirdi, mərdlər azalı qaldı.
Nəfəs-nəfəs ah salıb, dedim «ay, ay», **Cəbrayıl!**

Tanrıdan söz gətirən bir mələk kəlməsisən,
Qarabağ xalısısan, çeşnisisən, ilməsisən.
Bir türkmən gözəlinin «Qaragöz» nəğməsisən
Adın dilə gələndə deyəm: «boy, boy», **Cəbrayıl!**

Bir **Hələb** meydanında Nəsimiyəm, **Nəsimi**
Sənə verib gedərəm ruhumu, nəfəsimi
Qərinələr ötsə də eşidərsən səsimi
Çağıraram məzardan «ehey, ehey», **Cəbrayıl!**

Öz içindən alçaqlar səni görə bilməzlər,
Kor olmuş gözlərini bircə kərə silməzlər.
Hüsnünə heyranlığa hasar hörə bilməzlər,
Ağıl, idrak, kamillik, bəsirət boy, **Cəbrayıl!**

Bir «ay»a arxalanan **Turkay, Turcay, Tuncaysan**,
Ad axtaran oxusun - **Qorqud, Turğud, Turaysan.**
Od içində **Oday**san, suda yanan **Suay**san.
**Dənizər**sən, **Dağər**sən, **Yelay, Yeray, Cəbrayıl!**

Diş-diş göyər, bit yerdən, bitik-bitik dilə gəl,
**Xələfli**nin sözündə ağız-ağız elə gəl.
Tarixdə var olanı yaddaş-yaddaş ələ, gəl,
Atamız **Cəbrayıl**dan qalan saray **Cəbrayıl!**

Araz, Diri Qurbani - Xudafərin tağları,
Göynəyir yaddaşımın çalın-çarpaz dağları.
Kimə deyək kiritsin bu Xələfli ağları,
Dərdləri yallı gedir, qurub halay, **Cəbrayıl!**

Başsızların əlində oyuncaq oldu baxtın
Əsirinə çevrildin bəd zamanın, bəd vaxtın;
Yağmalandı yad əldə bəyliyin, tacın, taxtın,
Yağıların qoluna oldun qolay, **Cəbrayıl!**

Uca Tanrı dağına qüruru boy göstərər
Mələklər hüzuruna əyilər salam verər;
Xeyir əməllər əkib, müqəddəs güllər dərər,
Hüsnü cənnət misallı, özü humay **Cəbrayıl!**

Min il ömür yaşayam, ha yazam bitən deyil,
Qərinələr dolana, yaddaşdan itən deyil,
Kim desə, gəldi-gedər, inanma, ötən deyil,
Bu həsrətin yanğısı... dastan, olay, **Cəbrayıl!**

Sinəsində illərdi - teylənməyən yara var,
Həsrət-həsrət gözləri, boylanmayan hara var.
Ad-ad axtar, soraqla, sıra-sıra ara, var.
**Tumas Ata, Güzgədağ, Ziyarət, Tey, Cəbrayıl!**

**Araz** üstə zəncirdə bir **Pəri** var gözləyər,
Qərib ellər butası, kədəri var gözləyər,
Göy üzünə ün salan sazı yanar, közləyər,
Bulud-bulud ağlayan nəğmə, nanay, **Cəbrayıl!**

Alnının qaşqasından Günəş doğan, Ay çıxan,
Qaçışından şimşəklər, baxışından od çaxan,
Dırnağında daş didən, qəzəbi şahə qalxan,
Kəsilməyən kişnərti - köhlən, bədöy, **Cəbrayıl!**

*(Davamı 4-cü səhifədə)*

# CƏBRAYILIN GƏLƏCƏYİ... DÜŞÜNCƏLƏRİM

*(Əvvəli 3-cü səhifədə)*

Bu dərələr, bu dağlar, bu düzlər məskənimiz,
Dağılar dumanlıqlar, çəkilər çiskinimiz.
Gün doğar üstümüzə, barışar küskünümüz,
Fələyin saydığını deməram say, **Cəbrayıl!**

Qarası ağdan artıq zəmanənin nərdləri,
Tutmadı zərlərini bu torpağın mərdləri.
Vulkanik suxur kimi tərpədərsən dərdləri,
İnsanların qəlbindən qalxar lay-lay, **Cəbrayıl!**

Taleyin divan qurub, qismətin soyub səni,
Əsarətin ağrısı, acısı oyub səni.
İllərin ayrılığı yuxusuz qoyub səni,
Vüsal gələ, söyləyə - sənə lay-lay, **Cəbrayıl!**

**Xələfli, Yarəhmədli, Gordu Baba** dağı var,
Sinəsində dərdinin əlyetməz yaylağı var.
Qoy bilsin gələn nəsil, hər qaranın ağı var,
Sənin də üzün gülər, qurular toy, **Cəbrayıl!**

**Azərbaycan** sevinər, **Qarabağ** çıxar yasdan!
Dərddən, qəmdən qurtarar, üzə gülər **Gülüstan!**..
Yaddaşlara yazılar - oxunduqca bu dastan!
**Arazın** sahilində o tay, bu tay, **Cəbrayıl!**

Demə ki, ruhumuzda əbədi qış olacaq,
Demə ki, bu həsrətin axırı daş olacaq.
İnan ki, bir gün adın başlardan baş olacaq
Sevinərsən, gülərsən, olarsan şay, **Cəbrayıl!**

Hədə, qorxu önündə təmkin atından yenməz,
Qəzəbi şahə qalxar, yersiz danışmaz, dinməz.
Qəlbində ilahi nur, əbədi çıraq - sönməz
Özü sözünə ağa, qüruru bəy, **Cəbrayıl!**

İllərin ağrısını, acısını daşıyan,
Yaralı ürəklərə, könüllərə aşiyan.
İtkin oğul həsrətli ana kimi yaşayan,
Arzu, istək bağından dərdiyi vay, **Cəbrayıl!**

Gələrəm arzularda - günəşin üzü kimi,
Gözlərimin önündə cənnətin özü kimi.
Nə olsun ki xəyaldı, xəyalın gözü kimi
Gözlərimiz ağlayar, sellənər çay, **Cəbrayıl!**

Fəsillərin istisi əsirdi - girov yatır,
Şəmşirə sevgisində Kəlbəcər, Murov yatır.
Ürəyində sırsıra, başında qırov yatır,
Ötər payız, keçər qış, gələr yaz, yay, **Cəbrayıl!**

Od olam ocaqlara közərən gözlərimlə,
Sozalan ümidlərə can verəm sözlərimlə,
Möhlət verəydi Tanrım, görəydim gözlərimlə,
Vüsalından olmusan sonacan bay, **Cəbrayıl!**

Qoca kaftar, goreşən dağıda yuvasını,
Pəncə basıb leş sökə, iyləyə havasını
Boz Qurdun balaları tuta Vətən yasını,
Olarmı qurd əniyi belə əzvay, **Cəbrayıl!**

Dirilə Şah Xətayi, yeriyə, özü gələ,
Qızılbaş ordusuna can verə, sözü gələ.
Aşa zaman dağını, atlana düzü gələ,
Səs tufanı qaldıra, zərb gərənay, **Cəbrayıl!**

Tanrı sənə ad verib, qüvvət, dəyanət verib,
**Sərdar Əsəd** şeirindən dözüm, mətanət verib.
İsrafil də surunu sənə əmanət verib,
Təzədən gəlib çalar - dinər yer-göy, **Cəbrayıl!**

Təhsildə **Mehdizadə** işıq olub, nur olub,
Elmin ucalığında **Verdizadə** var olub,
Neçə-neçə zəkalar yetişib sərdar olub,
Suyu İrfan bulağı, içənə mey, **Cəbrayıl!**

Türküstan çöllərində **Tofiqin** şöhrəti var,
**Soltanlı Qəzənfərin** sözü var, hikməti var,
Hər sözü açmağında tarix həqiqəti var,
**Alim** - ağıl bitirən bir şəhər, köy, **Cəbrayıl!**

Çağırsınlar, desinlər elmin **Əşrəfi** gəlsin,
Akademik titulu - şöhrət, şərəfi gəlsin,
Araz axan yaradan ağrı tərəfi gəlsin,
Dərd gələ dərdə tuşa - Güney, Quzey, **Cəbrayıl!**

Yaşıl ilə qırmızı ətəyindən yapışıb,
General **Yasif** desin - həqiqətlər tapışıb,
İstiqlal rəngə dönüb, qol açıb qucaqlaşıb,
Qoca türkün bayrağı - göyərən göy, **Cəbrayıl!**

Kurqanları tarixin əbədi başdaşıdı,
Zaman-zaman oxunar - pozulmaz yaddaşıdı,
Kəhriz-kəhriz suları çağlayan göz yaşıdı,
Bulaqları zümzümə, yanıqlı ney, **Cəbrayıl!**

Həqiqətlər çırpınar, şübhədən çıxar güman
Oynayar damarlarda - danışar, dillənər qan
Ayaq açar yeriyər, bir gün bu durğun zaman
Ox çıxar kamənədən, çəkilər yay, **Cəbrayıl!**

Hər sözüm də vəsfinə sonsuz istək həvəsdi,
Səndən kənar ömrümə ömür demə - əbəsdi;
Mənim üçün illərin əzabına əvəzdi,
Üstündən ötüb gələn hər gün, hər ay, **Cəbrayıl!**

Köhlən ağzı yovşanda - baxasan bəylənəsən,
Keçəsən böyük çöldən - Gəyəndə əylənəsən,
Qançəkər soy yığnağı - yoluna boylanasan,
Gələ oğuz - qaqauz, qırğız - noğay, **Cəbrayıl!**

Əl aç Vətən göyünə, üzünü əlaca tut,
Qarabağa bir nicat - dərdinə illaca tut;
Xan **Çinar** qamətini əyilməz tut, uca tut,
Dəyanət, hünər göstər, təpəri gey, **Cəbrayıl.**

**Xıdır, Xurşud, Taleyin - Kazım, Azər, Vüqarın,**
**Mübarizin, Fuadın, Mirələmin, Şikarın,**
**«Şəhidlər anası»**yla tənha qalan diyarın
Didərgin ruhlarına başını əy, **Cəbrayıl!**

* * *

Başı kəsik künbəzin daşa dönmüş canı var,
Daşa dönmüş canların hissi, həyəcanı var;
Əlli milyonluq xalqın bir Azərbaycanı var,
Külək nəğmələrinlə Vətəni öy, **Cəbrayıl!**

Çox bağlı qapıların qisməti, açarı var,
Dünyanın "Sim-sim" adlı sehirli açarı var.
Doğrunun dayanmağı, böhtanın qaçarı var,
Yalıncığı-yaltağı, yalanı soy, **Cəbrayıl!**

Yadına sal kimlərin **Araz**dan keçməyini,
Tarixin əkməyini, yaddaşın biçməyini.
**Kiri** yenən **Tomris**in son andı içməyini...
Sən də yağı qanından kamınca doy, **Cəbrayıl!**

Qəlbində od gəzdirən ataların oğulu
**Qorqud**dan üzü bəri müdriklərin ağılı.
**Qaradağı** yağılı, **Qarabağı** dağılı
Dünyaya sipər, səngər ulusu yey, **Cəbrayıl!**

Şadlıq saraylarında kababı diş-diş elə,
Yalvar-yaxar faydası yox - qonağa biş-düş elə;
Gündoğanda dayanıb uzaqdan kiş-kiş elə,
Donuz çıxmaz darıdan ha daşla, söy, **Cəbrayıl!**

**Qurbani**nin sazını zaman əmanət aldı,
**Abdulla**nın mizrabı simlərə tufan saldı,
Yığnaq qurdu oxudu: «dünya kimlərə qaldı?»
Dillərdə dastan oldu aşıq **Humay, Cəbrayıl!**

Hər adamı bir dastan - kitab, nağıl sinədi,
Ağıllara sığmayan həqiqət, əfsanədi,
Yer altında sərvəti tükənməz xəzinədi,
Qızıl, gümüş, qurğuşun, dəmir, qalay, **Cəbrayıl!**

Sinə gərib dözmüşdü **Şeyx Məhyəddin** türbəsi,
Yerlə yeksan elədi bu dövranın zərbəsi
Yellərin apardığı həqiqətlər sürbəsi,
**Daş Beşiyin** laylası şair **Xasay, Cəbrayıl!**

Dedim yollar bağlıdı, sözümə saz ağladı,
Fəsil-fəsil dolandı üzümə yaz ağladı,
Duman çiskin içində gözümə iz ağladı,
Sözlərim salxımlandı giley, giley, **Cəbrayıl!**

İllər dolandı getdi, ötdü payızlı, yazlı,
Yaddaşlarda yaşadı min bir səsli, avazlı,
**Çaxmaq**da qara sazlı, **Diridə** cürə sazlı,
**Qalacıqlı, Dirili** iki **Surxay, Cəbrayıl!**

Payızında aranı, yazında gülən dağı,
İllərin o tayında qalıb indi sorağı...
Güney günə var olan, qüzey quzu yaylağı,
«Bir sinema pərdəsi» - güney, quzey, **Cəbrayıl!**

Dünya savaş meydanı - yırtan, dartan, sökən var,
Zamanı üz döndərib - dizi üstə çökən var.
Küləklərin səmtinə burun, imsi çəkən var;
Qarışıb bir-birinə dad, qoxu, iy, **Cəbrayıl!**

**Qarabağ** bağlı qapı - kim bağlaya, kim aça?
Doğranır buğum-buğum, kəsilir parça-parça;
Hərə çəkir bir yana - sürüklənir hərraca,
Ölü gözlü **Avropa** baxır key-key, **Cəbrayıl!**

Dünya bilyard masası... diqqətdə, maraqdadı,
Güclülər oyundadı, gücsüzlər qıraqdadı.
Qarabağ xallı şardı... güdükdə, maraqdadı
Vurmaq üçün tuşlanıb üstünə kiy, **Cəbrayıl!**

Mənim qəlbimdən keçir Ağrıdan ağıla yol,
Qaralardan yuyula, açıla, ağ ola yol.
Gedən gələn olmasa, deyirəm dağıla yol
Dönə həqiqət ola, yalan hay-küy, **Cəbrayıl!**

Təbiət dilə gələ, dağlar, daşlar çağıra,
Qucaq aça, sevinə, daş yurddaşlar çağıra.
Canımızdan ayrılmış qan yaddaşlar çağıra
Yadlara, yağılara tutula toy, **Cəbrayıl!**

Aprelin nizələri qəbir qazdı, göz oydu,
Yanvarın qara rəngi al-qırmızı don geydi.
Axır ki, zaman gəldi əsarətə son qoydu
Əbədi istiqlalın öz ayı may, **Cəbrayıl!**

Dağlarının zirvəsi qoca qartal sarayı,
Kimsəsiz xanımanın həsrət yeyər hər ayı.
Üstündən ötüb keçən tənha durna harayı
Kimsəsiz çöllərində öt torağay, **Cəbrayıl.**

Öz kökündən, soyundan ayrı düşən yazıq var,
Qaranlıqlar içində yolu itən, azıq var.
Tarixə işıq salan **Damcılı** var, **Azıq** var
Tumasda **"Divlər evi"** "zağa-saray", **Cəbrayıl.**

**"Yasaq olunmuş oyun"** taleyinin kürkündə,
**Sabir Əhmədli** qaldı yerdən, yurddan sürgündə.
**"Qiyamət"**dən gələn səs **"Əsrə bərabər gün"**də
**Çingiz taneke ruhu - uç Donenbay,** Cəbrayıl.

**Türkün** gücü, qüdrəti - qılınc çalan qolusan,
Yağıların önündə **Koroğlusan, Bolusan.**
**Kərkük**dən üzü bəri **Xudafərin** yolusan,
**Füzulisən, Bayatsan, Əfşar, Qaşqay,** Cəbrayıl.

**Qarabağ** xalısısan - naxışı, köbəsisən,
**Xələfli Əli Rzanın Məkkəsi, Kəbəsisən.**
Sözünə haqq qapısı - andısan, töbəsisən,
Qələmi yalan yazsa, gözünü oy, **Cəbrayıl.**

Adam var ki, danışar sərhəd qoymaz sözünə
Həqiqəti deyənin kül üfürər gözünə.
**Əli Rza** qələm çaldı, sözü tutdu üzünə,
**Zaloğlu** adın ilə yaşasın qoy, **Cəbrayıl!**

... Mən Cəbrayılın gələcəyini çox parlaq görürəm. İnanıram ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin ardıcıl siyasəti nəticəsində bütün Qarabağlılar kimi biz də tarixi yurdumuzla bağlı vüsalın şirinliyinə qovuşacağıq.

*21.06.2021*